**www.kitabxana.net**

**Milli Virtual Kitabxananın təqdimatında**

**"Çağdaş Azərbaycan poeziyası":** N 25 (12- 2014)

**Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş Azərbaycan poeziyası" kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır. Elektron Kitab N** 25 (12- 2014)

**Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum: YYSQ və Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net**

Furqan Sadıq

# *Yarpaqların intihar fəsli...*

***Poetik toplu***

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 25 (12- 2014)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq


Furqan Sadıq
Yarpaqların
intihar
fəsli…
Courtesy Photo

Furqan Sadıq

# *Yarpaqların intihar fəsli…*



***Redaktor: Elşad ƏRŞADOĞLU***

*Gənc şair Furqan Sadıqın sizlərə təqdim olunan ilk şeirlər kitabında "Nəğmə oxuyan yarpaqlar" başlığı altında təbiət şeirləri, "Yolların yol yoldaşıyam" başlığı altında isə fəlsəfi şeirləri yer alıb. Kitabda həmçinin, "Pıçıltılar"adlı kiçik şeirlər verilib.*

# VƏTƏN

Çəkmələrin dabanıyla
addım-addım əzdiyin
və üstündə
kişi-kişi gəzdiyin
bu torpaq Vətəndi, qardaş,
Vətən!

Sevsən də,
sevməsən də...
Söysən də,
söyməsən də...
Dərd içrə üzə-üzə
lap elə göynəsən də...

Axı nə fərqi var ki?!
Sən burda doğulmusan,
deməli,
bu torpağın oğlusan
və deməli,
yarasından qan yerinə
Araz adlı çay axan,
yarasını sarımaqçün,
yarısına qovuşmaqçün
darıxan
bu torpaq Vətəndi, qardaş,
Vətən!

Sevsən də,
sevməsən də...

# *Nəğmə oxuyan yarpaqlar*

## DAĞLARA BAXIRAM

*Musa Yaquba*

Dayanıb baxıram uca dağlara,
dağlar papaq edib bəyaz qarını.
Qarın göz aparan nurunda indi,
hələ bir az yuyum baxışlarımı.

Dağların başını duman qatıb ki,
Bu dağdan o dağa sürünür, baxın.
Yaradan nə gözəl bir qala tikib,
dağlar nə möhtəşəm görünür, baxın.

Buludlar boşaldar ürəklərini,
dağların üstündə dayanıb ağlar.
Hələ ki, saxlayır Vətən dərdini,
dağların dağ boyda hövsələsi var.

Elə bil "gizlənpaç" oyunu gedir,
sürünən dumanı bulud izləyir.
Dünya yarananda əl-ələ tutub
dağlar oynamağa "yallı" gözləyir...

Dayanıb baxıram uca dağlara,
dağlar papaq edib bəyaz qarını.
Qarın göz aparan nurunda indi,
hələ bir az yuyum baxışlarımı...

## BU DƏNİZ NƏ YAMAN ÇIRPINIR BELƏ

Bu dəniz nə yaman çırpınır belə...
Dağlarmı çəkilib sinəsi üstə...
Bu dəniz nə yaman çırpınır belə...

Bəlkə tənhalıqdan bezibdir dəniz,
bəlkə təkliyindən əsəbləşibdir.
Çırpına-çırpına dözübdür dəniz,
çırpına-çırpına gözəlləşibdir.

Nə isə danışır, söyləyir bizə,
dalğa ləhcəsiylə, külək diliylə.
Qovuşmaq istəyir sahil dənizə,
qovuşmaq istəyir dəniz sahilə.

Dənizə tor atır balıqtutanlar,
bu tora düşəndə balıqlar çaşır.
Dənizə tor atır balıqtutanlar,
dəniz də onlarla durub yanaşı.
Dənizin toruna qayalar düşüb...

Bu dəniz nə yaman çırpınır belə...
Bu dəniz nə yaman çırpınır belə...

# PAYIZ ŞEİRLƏRİ

## ~ 1 ~

Sentyabr gəldi, sentyabr!!!
Sayılı günlər qaldı
yayın bitməsinə.
Sonra çıxıb iş-güc dalınca
getməsinə...

Küləklər
at çapacaq küçələrdə,
saralmış yarpaqları
havaya sovura-sovura.
Payız gələcək
bir neçə gündən sonra...

Payız gələcək, payız,
rəngi saralmış bahar fəsli...
Payız gələcək, payız,
yarpaqların intihar fəsli...

## ~ 2 ~

Yarpaqlar saralır payızda,
dünyanın qızılı artır
bir xəzəl qalınlığında...
Yox, yox,
o qızıldan
deyil bu qızıl.
Yoxsa,
tərtəmiz olardı küçələr,
daha üzü torpaq kimi
cadar-cadar olmuş
süpürgəçilər
geyinməzdilər sarı xalatlarını...
Eh!!!
Payız gəlir,
soyuqlaşır havalar,
qabaqda qış var.
Yorğanını
üzünə çəkir torpaq...

Belə-belə işlər...
Ağaclar sökülür
yarpaq-yarpaq...

# TƏLƏSMƏ PAYIZA, TƏLƏSMƏ, BAHAR

***Dəqiq yadımda deyil, hansısa şairin***
***bu adda şeirini oxumuşam, ya yox.***
***Əgər bu adda hər hansısa bir şeir varsa,***
***mənim şeirim ona nəzirə sayılır...***

Söylə, nə görmüsən axı, payızda?
Payızın öz vaxtı, öz zamanı var.
Hələ sənin ömrün yarı olmayıb,
Hələ lilli sular heç durulmayıb,
Tələsmə payıza, tələsmə, bahar!

Çəməndə güllərin təzə-tər qalıb,
Niyə qıyırsan ki, o güllərə sən!?
Hələ yaşanmamış ömürlər qalıb,
İndi şadlıq gətir könüllərə sən.
Gəl inad eləmə bu qədər daha,
Tələsmə payıza, tələsmə, bahar!

Təzəcə cücərib tumurcuqların,
Hələ çiçəkləri, barı qalıbdır.
Gör necə gözəldir bu xoş çağların,
Getmə yaz ömründən yarı qalıbdır.
Şeh düşür yarpağın üstünə səhər,
Tələsmə payıza,tələsmə, bahar!

Düşmə əl-ayağa,gəl gecik bir az,
Yer göy qurşağından sallanıb qalıb.
Bir də görəcəksən gəlibdi payız,
Onsuz payız yaza calanıb qalıb.
Sənin təbiətlə davan ki yoxdur.
Səni öz yerindən qovan ki yoxdur,
Onsuz da tələsən peşiman olar,
Tələsmə payıza, tələsmə, bahar!..

## SÜPÜRÜR YOLLARI QƏZƏBLİ KÜLƏK

Süpürür yolları bu külək,
süpürür...
Hirsli külək,
qəzəbli külək.
Süpürür yolları əsəbi külək,
süpürür...

Külək hayıfını çıxır yollardan,
toz burulğanı fırlanır havada
fırfıra kimi...
Külək hayıfını çıxır hər şeydən,
yenə də soyumur qəzəbi, kini...

Süpürür yolları əsəbi külək...
Yollar baxır, baxır uzaqlara...
Yollar gedib çıxır uzaqlara...

Külək
musiqi müəllimi olub,
nəğmə oxumağı
öyrədir yarpaqlara...

## QIŞ NAĞILI

Qapı açıq imiş ki...
Qış da keçdi içəri...
Üç ay qışda qalacaq,
vaxtın qıfıl-açarı.

Payız çəkildi qışın,
çəkildi qabağından.
Sırsıra sallanacaq,
qışın göz qapağından.

Hardasa bir şad ağac
çiçək açar qar kimi.
Qış da lovğalanacaq
o zaman bahar kimi.

Kimsə qəmli deyəcək:
"Yoxdu qışın insafı".
Şaxtayla çəkiləcək,
qışın öz aftoqrafı...

Qorxaraq oğrun-oğrun,
payız boylanar,baxar.
Əlli tərpən, get, ay qış,
qoy gecikməsin bahar...

## DAĞ KƏNDİNİN QIŞ GECƏSİ

Dağ kəndinin qış gecəsi-
qaranlıq və duman...
Bumbuz hava
və donmuş zaman...
Asta-asta yağan qar
və
uzandıqca uzanan,
evlərin
işıqlı pəncərələrində qızınan
qaranlıqlar...

Dağ kəndinin qış gecəsi...
Mən
və bir də
sükutun
adamı yormaq işgəncəsi...

❖ ❖ ❖

Dünyanın üzü ağarır
sanki, qar yağanda...

Bax onda
necə sevinirsə adam,
bütün dərdləri çıxır yadından.
Və başlayır
qara bürünmüş,
bəyazlıqlara bürünmüş
kədərlə
qartopu oynamağa.
Təki
həmişə qar yağa...

Dünyanın üzü ağarır
sanki, qar yağanda...

# Yolların yol yoldaşıyam

## YOL

Yolların yol yoldaşıyam,
yollar da yol yorğunudur.
Dünyanın kürəyində
şallaq izidi yollar, elə bil.
Yollar tor kimi bağlayıb dünyanı,
əl-qol açmasın deyə.
Yollar tutub saxlayıb dünyanı,
bir yana qaçmasın deyə.
Görəsən,
bu yoldan
kim keçib birinci?
Kiminsə kədəri,
kiminsə sevinci
yolların üzünə hopub,
bu yoldan keçənlərin izinə hopub.
Məni hara aparır
bu yol, görəsən,
zirvəyəmi, dərəyəmi?
Gedirəm asta-asta.
Məndən qabaqda da,
məndən arxada da adam var,
yollara
ləpirtək düzülüb adamlar...
Dünya yollara bürünüb:
o başı yol, bu başı yol.
Kimsə astadan deyər:
-Eh, mən gedə bilmədim,
sənə yaxşı yol...

# GETMƏK İSTƏYİRƏM

Getmək istəyirəm haralarasa,
getmək istəyirəm...
Baş alıb getmək...
Bu əsən küləyə qoşulub getmək.
Yığıb arzuları daşınıb getmək.
Getmək istəyirəm haralarasa.

Bir aşıq səsinin cingiltisiylə
lap elə qol-qola, çiyin-çiyinə,
təzə ayaq açan körpə uşağın
yıxıla-yıxıla yüyürməyinə
qoşulub getməyim gəlir nədənsə.

Beynimə haradan düşdü bu fikir,
bəlkə də yuxuda dəli olmuşam,
bəlkə də
lap çoxdan dəli olmuşam,
dəlilik etməyim gəlir nədənsə.

Bir gəmi fitinin sonsuzluğuyla,
bir qatar səsinin ayrılığıyla,
bu əsən küləklə,
bu axan çayla
getmək istəyirəm,
baş alıb getmək.
Bir dəli ömrünü yaşayıb getmək.

Tökülər yollara arzularım da,
arzu ağacları bitər yerində.
Yağar ürəyimdən arzu yağışı,
görünər şeirimin sətirlərində.

Yığıb arzuları qucaq dolusu,
daşıyım özümlə kölələr kimi.
Dəlilik etməyim gəlir nədənsə,
olmaq istəyirəm dəlilər kimi.

Neyləyim, dayana bilmirəm daha,
getməyim, getməyim gəlir nədənsə.
Yollarda bitməyim gəlir nədənsə...

## ALNINA YAZILAN ZAMAN AZALIR

Alnına yazılan zaman azalır,
böyüyür alnının qırışı daha.
Gedən günlərini qaytarmaq olmur,
əlindən balıqtək sürüşür daha.

Bu gün də beləcə əridi şamtək,
elə fikirləş ki, son axşamındır.
Onsuz da zamanın bir gün bitəcək,
o biri dünyanın şamını yandır.

Düşün, yaxşı-yaxşı sonunu düşün,
Əbədi bir Nura çevir üzünü.
Bir gün öləcəksən, son anı düşün,
sonrakı əzabdan qoru özünü...

❖ ❖ ❖

Dünyanın ağı-qarası,
davaların-döyüşlərin
sağalmaz yarası-
şahmat taxtası...

Nə yaxşı ki, yalançıdır,
piyadanın vəzirə çevrilməyi,
tək qalmış şahın
taxt-tacının
devrilməyi...
Və sairə... nəyi, nəyi...

Bu taxta topların,
saxta vəzirlərin
qarşı tərəfə "şah" atması,
bu fillərin,
bu atların at oynatması...

Görəsən,
kim sahib çıxacaq
bu devrilmiş taxta?!
Ey dünyanın
ağlı-qaralı donunu
geyinmiş taxta?!

## ÜRƏYİMDƏ YER YOX DAHA

Ürəyimdə yer yox daha,
otaqlar yaman tünlükdü...
Kirayə qalmaq çox baha,
o da ki, beş-üç günlükdü...

Yenə nə tappıltıdı bu,
yenə də nə hay-haraydı?!
qapılar taybatay açıq,
ürəyim karvansaraydı...

Yorulub heydən düşərsən,
getsən bu gedişlə, ürək...
Bə dərdləri hara yığım,
bir azca genişlən, ürək...

❖ ❖ ❖

Qaç, qaça bildiyincə,
qaça bildiyincə
dünyadan qaç.
Uzaqlaş uzaqlaşa bildiyincə,
uzaqlaşa bildiyincə
dünyadan uzaqlaş...

Əl at səmadan
bəyaz bir bulud götür,
sənin olsun.
Əl at ürəyimdən
lazım olduğu qədər
ümid götür,
sənin olsun...

Bax Günəşin batmağına,
üfüqün boyanmağına bax.
Günəşin gedib yatmağına,
səhər oyanmağa bax...

Qaç qaça bildiyincə,
qaça bildiyincə
dünyadan qaç...
Ümid götürdünmü
ürəyimdən,
ümidin varmı sabaha?
Uzaqlaşa bildiyincə
dünyadan uzaqlaş,
yaxın ol Allaha!
Yaxın ol Allaha!

## DOSTUMA MƏKTUB

***(Varis üçün)***

Allah həyat varibsə, dost,
gərək mən də yaşayım...
Adam kimi ömür sürüm,
it günündə yaşayım?!

Həm başım boşdu, həm cibim,
zaman da boş ötüşür...
Əməllərim yazılanda,
sol çiynimə yük düşür...

Dost, indi sən de neyləyim,
silim günahlarımı?!
Yandırıb səpim torpağa
külün günahlarımın...

❖ ❖ ❖

Nə vaxtsa görəcəyim yuxuda
çıxacam dünyanın başına...
Təpikləyə-təpikləyə
soruşacam:
-Niyə qəm yağdırırsan,
səni anlayanın,
duyanın başına?
Guya ki, dünyadan
hayıfımı çıxacam
bir yuxunun gücünə...
Əşşi...
Dünyanın nə vecinə...
Yenə əvvəlki kimi
kiminsə başına
dərd tökəcək qucaq-qucaq.
Yenə pisliklə dolu olacaq
künc-bucaq...
Mənim sözümə kimdi e, baxan?
Mən deməmişdən qabaq
nə olacaqdısa
o da olacaq...

## HARA GEDİRSƏN, QOCA?!

Bu yolları quca-quca,
hara gedirsən, qoca?!
Xəyallarda uça-uça,
hara gedirsən, qoca?!

Bilirsənmi,bilirsənmi,
hara gedir bu yol, hara?
Bu yol gedir düz ölümə,
bu yol gedir düz məzara.

Sən də bu yolun yolçusu,
addım-addım gedirsən.
Çəliklə sözün doğrusu
yolu tutub gedirsən.

Səma sənə salam deyir,
salamını al, qoca!
Burda tək deyilsən, xeyr,
yoldaşındı yol, qoca!

O yol da ölməyə gedir,
səninlə bir öləcək.
Gedib, gedib görəcək ki,
bu da qəbir, öləcək.

Qəbristanlıq tək sənin yox,
O yolun da sonudu.
O yol bütün insanların-
bu qulların yoludu...

❖ ❖ ❖

Bir qapımı döyən yoxdu,
qalmışam ümid əlində.
Bir dərdimə həyan yoxdu,
oyuncağam dərd əlində.

Bulud göy üzünə yamaq,
olmur özünü yamamaq.
Göz yaşı töküb ağlamaq,
heç nədi bulud əlində.

Qaranlığa düşən kimi
bu bəndələr gileylənir.
Yar sinəni, ürəyini
məşəl kimi tut əlində...

## HƏYATI YEYİLƏN ADAM

Ey mənim həyatımı
nuşucanlıqla yeyən kimsələr!
Heç nə olmayıbmış kimi
elə-belə yeyin həyatımı...
Duzu azdırsa duz səpin,
yağı azdırsa yağlayın,
gülə-gülə yeyin həyatımı...

Amma, nə olar, yalvarıram,
mənə də dibində
bir az saxlayın-
aclıqdan ölməyim deyə...

# MAVİ ÇADIR - GÖY ÜZÜ

Başımız üstə qurulan,
mavi çadır-göy üzü.
Hamının ruhu qalxar,
hamıya çatar göy üzü.

Yay bitər və payız başlar,
qanadların açan quşlar,
qürbətə uçan quşlar
qatar-qatar, göy üzü...

Bizdən əsirgəmə, aman,
qarından, yağışından.
Torpaq sənin göz yaşından
içər, yatar, göy üzü!..

❖ ❖ ❖

Bayırda gün çıxıb,
içəridə
sükut atmosfer təzyiqi kimi
sıxır adamı.
Və sıxıntılar başlayır
burdan o yana.
Səssizlik divə dönüb
yeyir sanki məni, yeyir.
İndi inanırsan inan,
inanmırsan inan,
divarlar əlisilahlı adamtək
üstümə yeriyir...

Bayırda gün çıxıb,
içəridə sükut...
Mən də qalmışam belə...

## MƏNDƏN NƏ OLASIDI?!

Unudun məni, unudun,
məndən nə olasıdı?!
Hərəniz bir arzu tutun,
bəlkə də olasıdı...

Bu it nə istəyir görən,
sür-sümükmü, ölümmü?!
Yoxdu itə sümük verən,
nə də ölüm görünmür...

Başını at, yat, qadası,
səhər durub taparsan...
Acıları unut, bəlkə
şirin yuxu tapasan...

❖ ❖ ❖

Ayağının altındakı torpaq
müqəddəsdi, qardaşım,
ana torpaqdı
ayağının altındakı torpaq...
Qarğıma, qardaşım,
söymə bu torpağı,
yaralama,
hirsli-hirsli təpikləyib
döymə bu torpağı-
yadına salma dərdini...
Yoxsa,
arpa-buğda əvəzinə,
göy-göyərti əvəzinə
yekə dərdlər bitirəcək sənə...
Bax, onda
içində yanıb göynəyəcəksən...
Günlərin bir günü
düşəcəksən torpağa,
görüm onda
təmizə çıxmaq üçün
nə söyləyəcəksən...

❖ ❖ ❖

Düşüb bir sözün izinə,
çıxıb gedərəm düzünə.
Axtarıb, axtarıb yenə,
o sözü tapa bilmərəm.

Həmin günlərin birində,
yalanların şəhərində,
axtarıb döngədə, tində,
o düzü tapa bilmərəm.

Zaman başımı qatıb da,
Məni ölümə satanda,
yatıb torpağın altında,
göy üzün tapa bilmərəm...

## QARA BULUDLAR

### *Vaqif Bayatlı Odərə*

Qorxuram bu buluddan,
qorxuram.
Düşüb üstümə
                məni boğacaq.
Bu qara bulud
qara yağışa çevrilib
üstümə yağacaq...

Mənə necə baxır,
bu qara bulud,
necə baxır, İlahi!
Elə bil,
bir pislik etmişəm özünə.
Qorxuram bu buluddan,
qorxuram.
Baxa bilmirəm üzünə...

Qara buludlardan
adətən
yağış ələnər,
aydınlıq yağar.
Çıxıb getmir üstümüzdən
qara yağışlara
dönən
qara buludlar...

## DÜNYA YALANMIŞ SƏN DEMƏ

Dünya yalanmış, sən demə,
yalanmış gördüyüm hər şey.
Yalanmış başdan-ayağa
bu yer, bu göy,
dünya yalanmış, sən demə.

Bax dünyanın gözlərinə,
Var doğrudan başqa hər şey...
Yalanı doğma dünyanın
həqiqəti ögey, ögey...

Dünya yalanmış, sən demə.
Neynim yalançı dünyanı?!
Ən böyük həqiqəti də,
yalanmış qoca dünyanın...

## QAÇIM BU QƏMDƏN, KƏDƏRDƏN

Qaçım bu qəmdən, kədərdən,
qoy mənə çatmasın, gedim.
Danışıb təzə xəbərdən,
başımı qatmasın, gedim.

Ürəyimi yaralayıb,
zəhərləyib, paralayıb.
Məni yaman qaralayıb,
yaxamdan tutmasın, gedim.

Yükü ağır dərdi-sərin,
bir sümük qaldım, bir dəri.
Deyəsən, bu qəm-kədərin,
tutubdu tutması, gedim.

Bağlasam qapı-bacanı,
yenə sarır dörd bir yanı.
Siz deyin qəm tapmacanın,
siz deyin açmasın, gedim...

# BULUDLARI İÇƏN TORPAQ

Görün necə mehribandı,
ölüləri qucan torpaq.
Qışda büzüşərək yatan,
yazda güllər açan torpaq.

Hər kədərə, hər bir dərdə,
torpaq dözür,dözür, dədə!
Bizi yeyib üstündən də,
buludları içən torpaq.

Düşmənlər torpağı basdı,
orda bizə qəbir qazdı.
Sahibindən asılıdı-
ya göz dağı, ya can torpaq...

❖ ❖ ❖

Üçümüzük
neçə gündü,
bekarçılıq,
mən,
bir də krassvord...
Neçə gündü
bekarçılığı öldürürəm
asta-asta,
bala-bala.
Bekarçılığı öldürürəm
hərfləri
dörd divar arasına
sala-sala...
Neçə gündü...

# RAMİZ RÖVŞƏNƏ

Dünyanın paltarı çoxdu,
gündə dondan dona düşür...
Gözümdən düşən adamlar,
ayağım altına düşür...

Yolundadı zaman-gəmi,
ölümə daşıyır ömrü...
Kiminsə başlayan ömrü
kiminsə sonuna düşür...

Dərd içində sıxılırsan,
havan çatmır, boğulursan,
dərindən nəfəs alırsan,
o da ki, son ana düşür...

# GECƏ ŞEİRLƏRİ

## ~ 1 ~

## GECƏ

***Hər səhər bir gecə ölür...***
***Elşad ƏRŞADOĞLU***

Yenə gecə düşür, dünya qaralır,
gözlərim işarır ulduzlar kimi.
Təbiət gizlənir qaranlıqlarda,
ətrafım boş qalır yalqızlar kimi...

Bu gecə yamanca oynadır məni,
elə bil gecənin oyuncağıyam.
Ay da buludların o tərəfində-
indi dəli olub oynayacağam.

Qoparıb atmaq da olmur sükutu,
gecənin üzündə xaldı elə bil.
Dilənçi əlinə bənzəyir səma,
ulduzlar ovcunda puldu elə bil.

Mənim bu gecədən heç xoşum gəlmir,
nədənsə gözümə birtəhər dəyir.
Namaza duranda gündoğmamışdan
görəcəm gecəni bir səhər yeyir...

Yenə gecə düşür, dünya qaralır,
gözlərim işarır ulduzlar kimi.
Təbiət gizlənir qaranlıqlarda,
ətrafım boş qalır yalqızlar kimi...

**~ 2 ~**

❖ ❖ ❖

Gecənin bu vədəsində,
ac dünyanın mədəsində,
buludlar əhatəsində,
Aydan asacam özümü.

Hava ölüm qoxuyacaq,
külək "Yasin" oxuyacaq.
Kimsə kəndir toxuyacaq,
Aydan asacam özümü.

Gəzmək üçün səmaları,
tutub çəkəcək yuxarı.
Qarışdırıb yuxuları,
Aydan asacam özümü...

**~ 3 ~**

## DÜZ İKİ SAATDI SAAT İKİDİ...

Bu gecə başımı nə ilə qatım?
Vaxt da ölüb gedir-ağır itkidi.
Bircə mən oyağam, saat da yatıb-
düz iki saatdı, saat ikidi.

Bəlkə bir qışqırım, şəhər oyansın,
son qoyum daha bu təkliyimə mən.
Kim yuxudan bezib gecə yarısı,
kim özündən bezib, bax e, yenə mən.

Bəlkə bir-bir tutub sözləri döyüm,
bir-iki söz yazsam çoxu tökülür.
Durum qaranlıqdan yuxu istəyim,
şəhərin gözündən yuxu tökülür...

**~ 4 ~**

❖ ❖ ❖

Daha yavaş-yavaş səhər açılır,
qaranlıq astaca sürünüb gedir.
O əjdaha boyda, iriölçülü
sükut, qaranlığa bürünüb gedir.

Şirin yuxusundan dünya oyanır,
məmnundu bir günü aşırmağından.
İndi dan yerindən Günəş boylanır,
mənə də pay düşür saçaqlarından.

Dünya ağ-qaralı paltar geyinib,
bir az azadlıq var, bir az qəfəs var.
Mən də yaşayıram öz taleyimi,
hələ yaşamağa bir az həvəs var...

# PƏNCƏRƏDƏN BAXAN QARI

Pəncərədən baxan, qarı!
Gözlərini qıyıb,
qıyıb
nəyə baxırsan belə...
Gözündə yaş damlaları
uzaqlara baxırsan,
göyə
baxırsan belə.

Gəzir baxışların, gəzir,
dünyanın çopur üzündə.
Elə dünyaya bənzəyir,
qırış basmış üz-gözün də.

Fikrin uçub uzaqlara,
pəncərədən baxan, qarı!
Bax oynayan uşaqlara,
tozla
əlləşənlərə bax,
topla əlləşənlərə bax.

Sonra bir az böyüklərə-
doğruyla didişənlərə,
gopla əlləşənlərə bax...

Gözlərini qıyıb,
qıyıb,
nəyə baxırsan belə...

Yəqin sən də eşitmisən
bu dünyanın
bir pəncərə olduğunu
və
hər gələnin
baxıb getdiyini.

Ona görə çəkilmirsən
pəncərənin qabağından,
pəncərədən
baxan qarı...
Ölüm adlı əjdahadan
qorxan qarı...

# XATİRƏ MARŞI

Zamandı, görürsən durmadan axır,
nə illah eləsən saxlamaq olmur...
Həmişə sürüşüb əlindən çıxır,
sonra da neyləsən haqlamaq olmur,
tutub əl-qolunu bağlamaq olmur...
Zamandı, görürsən, durmadan axır...

Qalın toz qatı var illərin üstə,
qaldır, o illərin tozunu silək...
Orda xatirələr boğulur bəlkə,
kövrəlib, kövrəlib ağlayır bəlkə
sevinc xatirələr, qəm xatirələr,
kədər xatirələr, şən xatirələr...
"Xatirə marşı"nı oxuyur bəlkə
göz yaşına düşmüş nəm xatirələr...

Qaldır o illərin tozunu silək,
qoy bir az sevinib gülsün illər də...
Yaşanmış illərə bəs necə dönək,
körpümü düzəldək xatirələrdən?!

Zamandı, görürsən durmadan axır,
ötən dəqiqələr verir əl-ələ...
Adlayıb keçmişə qayıtmaq üçün,
mürgülü illəri oyatmaq üçün
xatirə körpülər qalacaq elə...
O qoca körpələr qalacaq elə...

# DƏRD

***Emin Piriyə***

Gözlərindəki ümidsizliyə,
üst-başından tökülən dərdə
və bir də
saqqalına baxıb
onu zarafatca Nizamiyə,
Füzuliyə bənzədirdi hamı...
Günlərin bir günü
bütün bunlara dözməyib
bayram fişəngi kimi partladı:
-Cibində bir qəpiyi,
evində
yeməyə çörəyi olmayana necə,
oxşamırammı?!

## ADƏM OĞLU

Eşit məni ey Adəm oğlu İnsan,
gör nə deyirəm...
Deyirəm bəlkə kor olmusan,
bəlkə görmürsən
o ömrü heç bir saat olmayan
yeddirəng səma uşağını...

Bəlkə kor olmusan,
bəlkə görmürsən
doğulandan ölənədək
səcdədən ayrılmayan göy qurşağını...

❖ ❖ ❖

Yarpaq-yarpaq solan ağac,
oxuma qəm havasını.
Saçlarını yolan ağac,
oxuma qəm havasını.

Bütün yarananlar ölür,
ölməmək olmur, olmur.
Yarpaq-yarpaq ölən ağac,
bu dünya heç kəsə qalmır.

Qəm eləmə, bu torpağın,
əzizi sən, gülü sənsən.
Vaxt gələr öldüyün kimi,
yarpaq-yarpaq dirilərsən...

Yarpaq-yarpaq ölən ağac,
oxuma qəm havasını...

## OYUNCAQ

Bu sənin gördüyün dünya deyil ki...
Dünyanın sərt üzün görmürsən, uşaq...
Sən hələ dünyanı əzizləyirsən,
sən hələ dünyanı söymürsən, uşaq...

Bu sənin bildiyin dünya deyil ki...
Anlamırsan necə dünyadasan sən...
Bəlkə də bir şirin yuxudasan sən,
bəlkə də bir şirin röyadasan sən...

Ayılıb görərsən dünya nədi, nə,
kədəri görərsən, qəmi görərsən...
Tapdığın bir kiçik sevinc üstünə,
insan üzündəki kini görərsən...

Sanma ki, gül-çiçək saracaq səni,
ətrafın daş-kəsək olacaq sənin...
Bəlkə də bir payız yarpağı kimi
ümidin eləcə solacaq sənin...

Bu oyunca tutan əllərin bəlkə
kiminsə dalınca daş tullayacaq...
Hər zaman halallıq axtarsan, bəlkə
dünya qabağına leş yollayacaq...

Oyna oyuncaqla, oyna, qadası,
sən özün dünyanın oyuncağısan...
Hələ anlamırsan, hələ bilmirsən,
necə oyuncağa dönüşür insan...

Axı belə uşaq qalmayacaqsan,
kədər, qəm əlində döyüləcəksən...
Böyüyüb dünyanı anlayacaqsan,
dünyanı anlasan böyüyəcəksən...

❖ ❖ ❖

Bir yay günü,
dünyanın bir isti bucağında,
üstünə gələn insanlardan
qorxub
dalğa-dalğa addımlarıyla
yerimək istəyir dəniz,
yeriyə bilmir.
Buna görə susmaq,
kirimək istəyir dəniz,
kiriyə bilmir.
İtirir özünü-
hirsini qayalardan çıxır,
bilmir gün hardan batır,
hardan çıxır.
İnsanları diri-diri
basdırmaq istəyir
dalğalarının altında.
“Bulandırmayın”-demək istəyir,
“bulandırmayın suyumu.
Məni incitməkdirmi
dünyanın ən maraqlı
oyunu?!
Sonra ağlayıb
göz yaşınızı
tökməyin üstümə.
Ağlamayın qisasımı alanda.
Əziyyət verməyin mənə,
nə olar ki, dilsiz olanda?!

Nə olar ki,
dəniz olanda?!."

❖ ❖ ❖

Bağlanır göz qapaqlarım,
dünyanın bütün ağırlığı
göz qapaqlarımdan
sallanıb elə bil.
Yuxu qollarını
boynuma dolayıb elə bil.
Gözlərimin qırağından
ovcuma yığım yuxumu,
sıxanda yumruğumu
sıxılsın yuxumun
boyu-buxunu.
Qaçım bu yuxudan, qaçım,
açım göz qapaqlarımı.
Dünyanı kipriklərimin ucunda
qaldırım bir az yuxarı.
Onsuz da
yatmaqdan bir şey çıxmaz,
silkələyib
torpağa töküm yuxumu.
Torpaq da
dəli bir yuxu
bitirəcək onda.
Bu dünyada
nə qədər də oyaq qalsaq,
torpaq altda
yuxularıq sonunda...

# KÖYNƏK

Əynimdəki dərd köynəyin,
çıxarmaq olmur, qadası.
Bu dərdlərin üstünə bir
çımxırmaq olmur, qadası.

Köynək məni sıxır, sıxır,
sıxır, bədənim göynəyir.
Sıxır mənim ürəyimi,
əynimdəki dərd köynəyi.

Daha bir oyuna dönüb
dərdlərimlə oynamağım.
Çox şeyə uzağam... amma,
dərdlərə bir köynək yaxın...

## YÜK ALTINDAYAM HƏLƏ

### *Ad günüm üçün*

Hələ canım üstümdədi,
yük altındayam hələ...
Göy üzü var başım üstdə,
kök altındayam hələ...

Yaşamaq kiminə asan,
kiminəsə zülümdü...
Bu gün ad günüm deyil ki...
Bu gün mənim ilimdi...

Görəsən, mən öz ömrümün
harasında durmuşam?!
Sərhəddəyəm, iki ilin
arasında durmuşam...

# FUTBOL TOPUNUN DALINCA

Bu futbol topunun dalınca
həvəslə qaçan uşaqlar
kim bilir böyüyüb
hansı dərdin dalınca
təngnəfəs qaçacaqlar.
Yolları yora bilməsələr də
yollar yoracaq ayaqlarını.
Qaç ki, qaçasan,
qaç ki, qaçasan.
Ürəklərində bir ümid,
dizlərində təpər qalmayacaq,
nə qədər çalışsalar da
kədərin qapısına
qol vurmaq olmayacaq.
Bəlkə də böyüyəndə
dərd-sərin çoxluğundan
ürəkləri parlayacaq
bu uşaqların.
Amma nə olur olsun
indi oynadıqları top
partlamasın barı...

## İŞLƏRİN DÜYÜNÜN AÇA BİLMİRƏM

Kədər odasına girməyə nə var,
mən qapı bilmirəm, baca bilmirəm....
Əvvəlki dırnaqlar yeyilib tamam,
işlərin düyünün aça bilmirəm...

Bilirsən, kədər də növbənöv olur,
rastıma çıxıbdı min cürəsindən...
Mənim otağımda bir tənhalıq var,
həyətə boylanır pəncərəsindən...

Özüm də bilmirəm nə olub mənə,
nədənsə heç nəyə həvəsim yoxdu...
Yaman üşüyürəm, a şair qardaş,
dur bir şeir yandır,hava soyuqdu...

# PIÇILTILAR

**~ 1 ~**

Yollar görsənməyəndə
fikir qarışığından,
ümid asılacaqsa
siqaret işığından,
daha mənim sözüm yox...

**~ 2 ~**

Şahmat taxtasının üstündə
biri atla at oynadır,
biri topla top atır,
bu yetim şah da
başındakı tacıyla
özünü aldadır...

**~ 3 ~**

Dünya bir palanlı qatırdı,
pis adamlar
bu qatırı palçığa batırdı...

**~ 4 ~**

Bu yollar uzanır üfüqə qədər,
amma indiyəcən görməmişəm mən
tutub bu yolları üfüqə gedən...

**~ 5 ~**

Bu gecə
kiminsə ümidi ölür,
kiminsə özü.
Kiminsə bəxti açılır,
kiminsə gözü...

**~ 6 ~**

Başımıza tac eylədin Haqq sözünü, İlahi,
Səni görmək istəyənin aç gözünü, İlahi...

**~ 7 ~**

Bu gün bir az kədər yedim,
ürəyim çox ağrıyır...
Gəl oturub özümüzə gün ağlayaq,
görək kim çox ağlayır...

**~ 8 ~**

-Bax, o başdaşı var ha,
o qəbir var ha,
orda mənim ümidlərim yatır...
-Tez ol, barmağını dişlə,
buna bax ee,
qəbrə barmaq uzadır...

**~ 9 ~**

Bu evin damını boşuna döymə,
qapıdan buyura bilərsən, yağış...

# Kitabın içindəkilər

Vətən 4

**Nəğmə oxuyan yarpaqlar 5**

Dağlara baxıram 6
Bu dəniz nə yaman çırpınır belə
Payız şeirləri
"Sentyabr gəldi, sentyabr"
"Yarpaqlar saralır payızda"
Tələsmə payıza, tələsmə bahar
Süpürür yolları qəzəbli külək
Qış nağıl
Dağ kəndinin qış gecəsi
"Dünyanın üzü ağarır"

**Yolların yol yoldaşıyam...**

Yol
Getmək istəyirəm
Alnına yazılan zaman azalır
"Dünyanın ağı-qarası"
Ürəyimdə yer yox daha
"Qaç qaça bildiyincə"
Dostuma məktub
"Nə vaxtsa görəcəyim yuxu"
Hara gedirsən, qoca?!
"Bir qapımı döyən yoxdu"
Həyatı yeyilən adam
Mavi çadır-göy üzü
"Bayırda gün çıxıb"
Məndən nə olasıdı?!
"Ayağının altındakı torpaq"
"Düşüb bir sözün izinə"
Qara buludlar

Dünya yalanmış, sən demə
Qaçım bu qəmdən, kədərdən
Buludları içən torpaq
"Üçümüzük"
Ramiz Rövşənə

**Gecə şeirləri**

Gecə
"Gecənin bu vədəsində"
Qaranlığın şeiri
"Daha yavaş-yavaş səhər açılır"
Pəncərədən baxan qarı
Xatirə marşı
Dərd
Adəm oğlu
"Yarpaq-yarpaq solan ağac"
Oyuncaq
"Bir yay günü"
"Bağlanır göz qapaqlarım"

Köynək
Yük altındayam hələ

Futbol topunun dalınca
İşlərin düyünün aça bilmirəm

**Pıçıltılar**